AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Mərkəzi Bank illik inflyasiya proqnozlarını yenə artırıb

6 dəqiqə öncə




Azərbaycanlı avropalıdan iki dəfə az ət yeyir, amma... 'Qiymət artımı qaçılmazdır'

Azərbaycanda 2026-cı ildə illik inflyasiyanın 6.1 faiz, 2027-ci ildə isə 5.8 faiz olacağı gözlənilir.

Bu barədə Azərbaycan Mərkəzi Bankı (AMB) məlumat yayıb.

Bundan əvvəl qurum illik inflyasiyanın, müvafiq olaraq, 5.9 faiz və 4.5 faiz səviyyəsində olacağını bəyan etmişdi.

"İllik inflyasiya hədəf daxilindədir və baza ssenarisi üzrə proqnoz trayektoriyasına uyğun hərəkət edir. 2026-cı ilin iyununda 12 aylıq inflyasiya 5.8 faiz təşkil edib. İllik qiymət artımı qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 7.1 faiz,

ödənişli xidmətlər üzrə 5.6 faiz, qeyri-qida məhsulları üzrə isə 3.8 faiz olub. İllik baza inflyasiya 5.5 faiz təşkil edib", – açıqlamada deyilir.

İllik inflyasiyanın 2027-ci ilin ikinci yarısından hədəf diapazonuna qayıdacağı gözlənilir.

AMB-yə görə, qlobal geosiyasi gərginlik fonunda enerji və ərzaq qiymətlərinin artması səbəbindən Azərbaycana inflyasiya idxalı riski yüksəkdir.

AMB sədri **Taleh Kazımov** bu həftə bildirib ki, Azərbaycanda inflyasiya əsasən idxal xarakterlidir və son dörd ildə inflyasiyaya artırıcı təsir göstərən əsas faktor məhz təklif amili olub: **"Təklif amillərinə baxdıqda, burada iki əsas kanal var. Birincisi, idxal edilən mal və xidmətlərin qiymətidir, yəni ticarət tərəfdaşlarımızda olan inflyasiya daxili bazara ötürülür. İkincisi isə yerli istehsalçıların xərc amillərinin artmasıdır. Bura dövlət tərəfindən tənzimlənən xidmətlər — məsələn, elektrik enerjisi, təbii qaz, su və yanacaq qiymətləri daxildir".**

Müstəqil iqtisadçılar isə ölkədə real inflyasiyanın ikirəqəmli səviyyəyə çatdığını iddia edirlər. Ekspertlər qiymət artımının yalnız xarici amillərlə əsaslandırılması ilə razılaşmır, daxili xərc və təklif faktorlarına diqqət çəkirlər.

---

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur